## Azərbaycan Texniki Universitetinin 2025-ci ildə keçirilən Elmi Şura iclaslarının QƏRARLARI

| | |
|---|---|
| 06.03.2025 (Onlayn iclas pr. 4) | **1. Fakültələr üzrə boş qalan təqaüd yerlərinin digər fakültələrdə ÜOMG-ləri yüksək olan tələbələr arasında bölüşdürülməsi haqqında.**<br>1.Fakültələr üzrə boş qalan təqaüd yerlərinin müvafiq tədris illəri üzrə digər fakültələrdə ÜOMG-ləri yüksək olan tələbələr arasında bölüşdürülməsi təmin edilsin. |
| 11.03.2025 (Onlayn iclas pr. 5) | **1.AzTU-nun 2025-ci ildə Fəaliyyət planının təsdiqi barədə.**<br>1. AzTU-nun 2025-ci il üçün Fəaliyyət planı təsdiq edilsin. |
| 17.03.2025 (pr. 6) | **1. 2024-2025-ci tədris ilinin qış imtahan sessiyasının nəticələrinin müzakirəsi.**<br>1. 2024/2025-ci tədris ilinin qış imtahan sessiyasının nəticələri qənaətbəxş hesab edilsin.<br>3. 2024-2025-ci tədris ilinin yaz semestrinin aralıq qiymətləndirilməsinin keyfiyyətinin yüksəldilməsi məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi təmin edilsin:<br>- yaz semestrində I və II kurs tələbələrinə tədris olunacaq İKT yönümlü fənlərin tələbələrin praktiki bilik və bacarıqlara yiyələnməsi istiqamətində yönəldilməsi ilə bağlı işlərin davam etdirilməsi;<br>- Kompüterlə təchiz olunmuş mövcud imtahan otaqlarının infrastrukturunun yaxşılaşdırılması və avadanlıqların işlək vəziyyətdə saxlanılmasına nəzarətin gücləndirilməsi;<br>- İmtahan modulunun təkmilləşdirilməsi - mövcud İKT imkanlarına uyğunlaşdırılması;<br>- İmtahan prosesində istifadə olunan əlavə otaqlarının kameralarla təchiz edilməsi;<br>- İmtahan suallarının təkmilləşdirilməsi və nəticələrin yoxlama müddətinin normalar daxilində təmin edilməsi.<br>**2. AzTU-nun 2024-cü il üçün Elmi tədqiqat, Elmmetrik göstəricilər və İnnovasiya fəaliyyəti haqqında hesabatı.**<br>1. “AzTU-nun 2024-cü il üçün Elmi tədqiqat, Elmmetrik göstəricilər və İnnovasiya fəaliyyəti haqqında” Elm və innovasiyalar üzrə prorektor, professor Sübhan Namazovun məruzəsi qənaətbəxş hesab edilsin.<br>2. Reytinq üzrə siyahıda ilk 60 nəfər professor-müəllim heyətinin aylıq məvaciblərinə 01.01.2025 - 31.12.2025-ci il dövrü üçün ilk onluqda yer almış müəllimlərə 50%, 11-31 sıralamasında yer alanlara 30%, 32-60 sıralamasında yer alanlara isə 20% olmaqla əlavələr edilməsi üçün lazımi fəaliyyətlər həyata keçirilsin (10 gün ərzində müvafiq dəqiqləşdirmələr aparmaqla). |

| | |
|---|---|
| | 3. Beynəlxalq bazalara daxil olan elmi jurnallarda (SCOPUS və Web of Science) dərc olunan məqalələrə görə birdəfəlik mükafatlandırma məqsədilə 10 gün ərzində təkliflər hazırlanısın və ödənişlərin həyata keçirilməsi üçün təqdim edilsin.<br>**3. Xüsusi texnika və texnologiya fakültəsininin inkişaf perspektivləri haqqında.**<br>Aşağıda verilmiş fəaliyyətlərin həyata keçirilməsi məqsədilə Xüsusi texnika və texnologiya fakültəsinə “pilot fakültə” statusu verilsin.<br>-Fakültənin tədris və idarəetmə sistemlərinin ISO 9001 (Keyfiyyət idarəetmə sistemi) və ISO 21001 (Təhsil müəssisələri üçün idarəetmə sistemi) standartlarına uyğunlaşdırılması;<br>-Əmək bazarının ehtiyaclarına cavab verən mühəndis kadrların hazırlanması üçün maddi-texniki bazanın müasirləşdirilməsi və gücləndirilməsi;<br>-Müəssisələrlə sıx əməkdaşlıq əsasında praktiki və laboratoriya dərslərinin bir hissəsinin müəssisələrdə təşkili, tələbələrin istehsalat yönümlü bilik və bacarıqlarla təchiz olunması;<br>-Fakültədə həyata keçiriləcək elmi-tədqiqat işlərinin bilavasitə sənaye və bazarın aktual problemlərinə yönəldilməsi, nəticələrin tətbiqedilən və səmərəli olması;<br>-Fakültədə əldə olunan elmi nəticələrin Azərbaycan Texniki Universitetinin Texnologiyaların Transferi Ofisi (AzTU TTO) vasitəsilə kommersiyalaşdırılması və sənaye üçün məhsula çevrilməsi;<br>-Pilot mərhələnin növbəti mərhələsində ISO 56001 (İnnovasiya idarəetmə sistemi) standartının həm fakültə, həm də AzTU TTO üzrə tətbiqi və müvafiq sertifikatlaşdırma proseslərinin həyata keçirilməsi.<br>**4. İqtisadiyyat və statistika kafedrasının dosenti Orucova Mehparə Səttər qızının dosent, Elektrotexnika kafedrasının professoru Kərimov Elçin Əhməd oğlunun professor elmi adı alması üçün Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılması haqqında.**<br>- Orucova Mehparə Səttər qızının dosent elmi adı alması ilə bağlı gizli səsvermənin nəticələri üzrə hesablama komissiyasının protokolu təsdiq edilsin. Gizli səsvermənin nəticələrinə əsasən Orucova Mehparə Səttər qızına dosent elmi adı verilməsi barədə Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılsın.<br>- Kərimov Elçin Əhməd oğlunun professor elmi adı alması ilə bağlı gizli səsvermənin nəticələri üzrə hesablama komissiyasının protokolu təsdiq edilsin. Gizli səsvermənin nəticələrinə əsasən Kərimov Elçin Əhməd oğluna professor elmi adı verilməsi barədə Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılsın. |

# Azərbaycan Texniki Universitetinin 2025-ci ildə keçirilən Elmi Şura iclaslarının QƏRARLARI

| | |
|---|---|
| | **5. Strateji inkişafla bağlı Fəaliyyət Planının müzakirəsi haqqında.**<br>Azərbaycan Texniki Universitetinin 2024-2030-cu illər üzrə Strateji İnkişaf Planının icrası üçün 2025-ci təqvim ili üzrə Fəaliyyət planı təsdiq olunsun.<br>**6. Bəzi normativ sənədlərin təsdiqi haqqında.**<br>- Logistika və nəqliyyat institutunun əsasnaməsi təsdiq olunsun;<br>- Ömürboyu öyrənmə məktəbinin əsasnaməsi təsdiq olunsun. |
| 13.06.2025<br>(pr. 7) | 1.**Şimali Kipr Türk Respublikasının Prezidenti cənab Ersin Tatara Azərbaycan Texniki Universitetinin fəxri doktoru adının verilməsi haqqında.**<br>Şimali Kipr Türk Respublikası Prezidenti cənab Ersin Tatara Azərbaycan Texniki Universitetinin fəxri doktoru adının verilməsi məqsədəuyğun hesab edilsin.<br>**2. CELTA və DELTA sertifikatlarının (ekvivalent olaraq) təqdim olunmasının mümkünlüyü haqqında qərarın təsdiqi haqqında.**<br>**“**Azərbaycan Texniki Universitetinin Xarici dillər kafedrasına ingilis dili tədrisini aparacaq yeni müəllimlərin işə qəbulu üzrə Seçim Qaydaları” CELTA və DELTA beynəlxalq sertifikatları əsas olaraq, İELTS (7.5; 8.0; 8.5) sertifikatı isə ekvivalent olaraq daxil olunmaqla yenidən təsdiq edilsin.<br>**3. Doktorantların rəhbər və mövzularının təsdiqi haqqında.**<br>**- Daşdəmirli Nuru Fuad oğlu;**<br>Azərbaycan Texniki Universitetinin 1203.01 – “Kompüter elmləri” ixtisasında fəlsəfə doktoru proqramı üzrə doktorantı Daşdəmirli Nuru Fuad oğlunun dissertasiya işinin mövzusu “Mikrokontrollerlər üzərində virtual maşın əsaslı yanaşmaların işlənməsi” kimi, elmi rəhbəri t.e.d., dos. İmamverdiyev Yadigar Nəsib oğlu təsdiq edilsin.<br>**- Hüseynzadə Könül Rüfət qızı;**<br>Azərbaycan Texniki Universitetinin 3313.02– “Maşınlar, avadanlıqlar və proseslər” ixtisasında fəlsəfə doktoru proqramı üzrə doktorantı Hüseynzadə Könül Rüfət qızının dissertasiya işinin mövzusu “Kosmik aparat manipulyatorlarının struktur sintezi və kinematik analizi” kimi, elmi rəhbəri - məsləhətçi professor Əlizadə Rasim İsmayıl oğlu təsdiq edilsin. |

| | |
|---|---|
| | **- Babanlı Günel Fəxrəddin qızı.**<br>Azərbaycan Texniki Universitetinin 3338.01 – "Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi" (sahələr üzrə) ixtisasında fəlsəfə doktoru proqramı üzrə doktorantı Babanlı Günel Fəxrəddin qızının dissertasiya işinin mövzusu "Klasterləşdirmənin keyfiyyətinin yaxşılaşdırılması üçün bölünmə və sıxlığa əsaslanan yeni hibrid metodların işlənməsi" kimi, elmi rəhbərləri - t.e.d., prof. Alıquliyev Ramiz Məhəmməd oğlu və t.e.n., dos. Əmirova Rəna Ağamir qızı təsdiq edilsinlər.<br>**4. Maşın dizaynı və sənaye texnologiyaları kafedrasının professorları Nadirov Uğurlu Məhəmməd oğlu və Əhmədov Bəyalı Bəhcət oğlunun professor elmi adı, İqtisadiyyat və statistika kafedrasının dosenti Namazova Natəvan Veysəl qızı və Radiotexnika və telekommunikasiya kafedrasının dosenti Şükürov Namik Malik oğlunun dosent elmi adı alması üçün Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılması haqqında.**<br>Nadirov Uğurlu Məhəmməd oğlunun professor elmi adı alması ilə bağlı gizli səsvermənin nəticələri üzrə hesablama komissiyasının protokolu təsdiq edilsin. Gizli səsvermənin nəticələrinə əsasən Nadirov Uğurlu Məhəmməd oğluna professor elmi adı verilməsi barədə Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılsın.<br>Əhmədov Bəyalı Bəhcət oğlunun professor elmi adı alması ilə bağlı gizli səsvermənin nəticələri üzrə hesablama komissiyasının protokolu təsdiq edilsin. Gizli səsvermənin nəticələrinə əsasən Əhmədov Bəyalı Bəhcət oğluna professor elmi adı verilməsi barədə Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılsın.<br>Namazova Natəvan Veysəl qızının dosent elmi adı alması ilə bağlı gizli səsvermənin nəticələri hesablama komissiyasının protokolu təsdiq edilsin. Gizli səsvermənin nəticələrinə əsasən Namazova Natəvan Veysəl qızına dosent elmi adı verilməsi barədə Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılsın.<br>Şükürov Namik Malik oğlunun dosent elmi adı alması ilə bağlı gizli səsvermənin nəticələri üzrə hesablama komissiyasının protokolu təsdiq edilsin. Gizli səsvermənin nəticələrinə əsasən Şükürov Namik Malik oğluna dosent elmi adı verilməsi barədə Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılsın.<br>**5. AzTU-da informasiya təhlükəsizliyinin monitorinqi və auditinin Kibertəhlükəsizlik kafedrasına həvalə edilməsi haqqında.**<br>Azərbaycan Texniki Universitetində informasiya təhlükəsizliyinin monitorinqi və auditi Kibertəhlükəsizlik kafedrasına həvalə edilsin.<br>**6. İkili diplom proqramı çərçivəsində təhsil alan tələbələr üçün aviabiletlərin alınması haqqında.** |

| | |
|---|---|
| | İkili diplom proqramı çərçivəsində təhsil alan tələbələr üçün (yalnız tədris ilinin sonunda hər hansı fəndən akademik borcu olmadığı təqdirdə!) aviabiletlərin alınması təmin edilsin.<br>**7. Vətən müharibəsi iştirakçılarının təhsil haqqı borcunun Universitet tərəfindən qarşılanması haqqında.**<br>Vətən müharibəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsində iştirak etdiklərini və döyüşlərdəki xüsusi xidmətlərini nəzərə alaraq, AzTU tələbələrinin təhsil haqqı borcları (Əhmədli İlham İslam oğlu, Məmmədli Tural Elçin oğlu, Qasımov Zaur Ramiz oğlu, Əliağalı Ruhin Xəqani oğlu, Hüseynov Tofiq Əvəz oğlu, Ələkbərov Əmrah Əlizamin oğlu, Mirzəyev İlkin Sərxan oğlu, Bayramov Məhəmməd Səməd oğlu, İbrahimli Daməd Arif oğlu, Rzayev Elmir Mirdamət oğlu, Əlizadə Nicat Kənan oğlu) Azərbaycan Texniki Universiteti hesabına ödənilsin. |
| 05.07.2025<br>(pr. 8) | **1. Beynəlxalq reytinqdə (QS və THE) AzTU-nun nəticələri və qarşıda duran vəzifələr haqqında.**<br>1. AzTU-nun cari ildə Beynəlxalq reytinqlərdə əldə etdiyi nəticələr: QS Dünya universitetləri reytinqində **ilk 1000 universitet** sırasına daxil **olması (851-900)**, THE İmpact Ranking-də **1500+** daxil olması; **“QS Stars”** qiymətləndirmə proqramı çərçivəsində **5 ulduz (“mükəmməl”)** nəticə əldə etməsi AzTU kollektivi üçün yüksək qiymətləndirilsin.<br>2. Beynəlxalq reytinqlər üzrə fəaliyyət göstərmiş işçi qrupun rəhbəri Elm və innovasiyalar üzrə prorektor, prof. Sübhan Namazova tapşırılsın:<br>- beynəlxalq reytinqlərdə yüksək nəticənin əldə olunmasında davamlı fəaliyyət göstərmiş əməkdaşların motivasiyasının təmin olunması, maddi və mənəvi dəstəklənməsi məqsədilə təkliflər hazırlayıb 3 iş günü müddətində rektorluğa təqdim etsin;<br>- beynəlxalq reytinqlərdə ayrı-ayrı indikatorlar üzrə nəticələrin Keyfiyyət və Reytinqlərin İdarəedilməsi Komitəsində müzakirəsini təşkil etsin və nəticələrin davamlı olaraq qorunub saxlanılması və daha da yüksəəldilməsi üçün illik fəaliyyət planları müəyyən edilməsni təmin etsin;<br>- AzTU-nun elmmetrik göstəricilərinin yüksəldilməsi məqsədilə elmi potensialın düzgün istifadə edilməsi, beynəlxalq şəbəkələşmənin gücləndirilməsi istiqamətində mövcud imkanlardan maksimum istifadə olunmasını təşkil etsin;<br>- Beynəlxalq reytinqlər üzrə vacib fəaliyyət sahələrində nəticələrin davamlı inkişafı üçün müvafiq sahələr üzrə rəhbər heyətin hesabatlarının Keyfiyyət və Reytinqlərin İdarəedilməsi Komitəsində dinlənilməsini və perspektiv vəzifələri daim diqqətdə saxlasın;<br>3. Kollektivin hər bir üzvünün universitetin beynəlxalq nüfuzunun artırılmasındakı rolunun realizə olunması siyasəti həyata keçirilsin; |

# Azərbaycan Texniki Universitetinin 2025-ci ildə keçirilən Elmi Şura iclaslarının QƏRARLARI

| | |
|---|---|
| | 4. Elmi tədqiqatların nəticələrinin beynəlxalq bazalarda dərc olunması işinin dəstəklənməsi, beynəlxalq konfransların brendləşdirilməsi və beynəlxalq şəbəkələşməsinin gücləndirilməsi işi diqqətdə saxlanılsın;<br>5. Tədqiqat və İnkişaf Departamenti tərəfindən beynəlxalq reytinqlər və SDG-lər üzrə AzTU-nun fəliyyət planının yerinə yetrilməsinə nəzarət və monitorinq həyata keçirilsin və müvafiq təkliflər verilsin;<br>6. 2025/2026-cı tədris ilindən magistratura səviyyəsi (bütün ixtisas və ixtisaslaşmalar) üzrə tədris planlarında “Tədqiqat işinin aparılması” fənni “Dayanıqlı inkişaf” fənni ilə əvəz olunsun.<br>**2. 2025/2026-cı tədris ili üçün Akademik Təqvim və Fəaliyyət Planının təsdiq olunması haqqında.**<br>2025/2026-cı tədris ili üçün Akademik Təqvim və Fəaliyyət Planı təsdiq edilsin.<br>**3. Elmi Şuranın İş planının təsdiq edilməsi haqqında.**<br>Elmi Şuranın 2025-2026-cü tədris ili üçün təklif olunan iş planı təsdiq edilsin.<br>**4. Daxili qrant layihəsinin elektron platformada elan edilməsi haqqında.**<br>1. AzTU-nun professor-müəllim heyəti, İTİ və İSİ-nin elmi işçilərinin tədqiqat fəaliyyətinin dəstəklənməsi üçün birgə daxili qrant layihəsi müsabiqəsinin təklif olunan elan layihəsi və müvafiq əsasnamə təsdiq olunsun (əlavə olunur).<br>2. Elm və innovasiyalar üzrə prorektora tapşırılsın ki, bir ay müddətində AzTU-nun E-Qrant platformasının hazırlanmasını təşkil etsin.<br>3. AzTU tərəfindən daxili qrant layihəsi müsabiqəsinin elan olunması məqsədilə AzTU, İTİ, İSİ tərəfdən mütəxəssislərdən ibarət əlaqələndirici şəxslər müəyyən edilsin.<br>4. Qrant layihəsi müsabiqəsində AzTU, İTİ və İSİ mütəxəssislərinin birgə multidissiplinar layihələr təqdim etməsi üçün lazımi təşviq işləri aparılsın.<br>5. Prioritet istiqamətlər üzrə hər bir layihənin elan edilməsi barədə sənədlər toplusu hazırlansın.<br>**5. Əcnəbi tələbələrin təhsil aldığı hazırlıq kurslarının yeni tədris planının təsdiq edilməsi haqqında.**<br>Əcnəbi tələbələrin təhsil aldığı hazırlıq kurslarının yeni tədris planı təsdiq edilsin (Əlavə olunur).<br>**6. Əcnəbilərin AzTU-ya qəbul və hazırlıq kurslarında təhsil alması qaydaları haqqında.**<br>**“**Əcnəbilərin Azərbaycan Texniki Universitetinə qəbul və hazırlıq kurslarında təhsil alması Qaydaları” təsdiq edilsin (Əlavə olunur). |

## Azərbaycan Texniki Universitetinin 2025-ci ildə keçirilən Elmi Şura iclaslarının QƏRARLARI

| | |
|---|---|
| | **7. Elmlər doktoru və fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorantların (dissertantların) dissertasiya işinin mövzularının (eləcə də elmi rəhbərlərinin) dəqiqləşdirilməsi haqqında:**<br>Doktoranturaya (dissertanturaya) fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə qəbul edilmiş adları təqdim olunan iddiaçıların dissertasiya mövzuları və elmi rəhbərləri (elmi məsləhətçiləri) təsdiq edilsin:<br>**8. AzTU-da bakalavriat səviyyəsində 2026-2027-ci akademik tədris ilində yeni açılacaq 6006021 - “Kommunikasiya sistemləri mühəndisliyi“ ixtisası üzrə müvafiq sənədlərin hazırlanması üçün işçi qrupun yaradılması haqqında.**<br>**1.** AzTU-da bakalavriat səviyyəsində 2026-2027-ci akademik tədris ilində yeni açılacaq 6006021 - “Kommunikasiya sistemləri mühəndisliyi“ ixtisası üzrə müvafiq sənədlərin hazırlanması üçün işçi qrupu yaradılsın:<br>**2.** İşçi qrupuna tapşırılsın ki, Qaydalara uyğun olaraq müvafiq sənədləri 1 (bir) ay ərzində hazırlayıb təsdiq olunması üçün Elmi Şuraya təqdim etsinlər. |
| 17.10.2025<br>(pr. 1) | **1. 2024/2025-ci tədris ilinin payız və yay imtahan sessiyasının nəticələrinin təhlili haqqında (Apellyasiya və İmtahan qərargahının hesabatları daxil olmaqla).**<br>2024/2025-ci tədris ilinin payız və yay imtahan sessiyasının nəticələrinin təhlili haqqında (Apellyasiya və İmtahan qərargahının hesabatları daxil olmaqla) hesabat qənaətbəxş hesab edilsin.<br>**2. Magistratura təhsil pilləsi üzrə yeni təsnifata uyğun hazırlanmış ixtisas (ixtisaslaşmalar) üzrə Tədris planları və Təhsil proqramlarının təsdiq olunması haqqında.**<br>Azərbaycan Texniki Universitetində 2025/2026-cı tədris ili üçün magistratura təhsil pilləsi üzrə yeni təsnifata uyğun hazırlanmış ixtisas (ixtisaslaşmalar) üzrə Tədris Planları və Təhsil proqramları təsdiq olunsun.<br>**3. AzTU-da bakalavriat səviyyəsində 2026/2027-ci akademik tədris ilində yeni açılacaq 6006021 - “Kommunikasiya sistemləri mühəndisliyi“ ixtisası üzrə işçi qrup tərəfindən hazırlanmış sənədlərin təsdiq olunması haqqında.**<br>1. 2026/2027-ci akademik tədris ilində Azərbaycan Texniki Universitetində bakalaviriat səviyyəsində yeni açılacaq 6006021 - “Kommunikasiya sistemləri mühəndisliyi“ ixtisası üzrə işçi qrup tərəfindən hazırlanıb təqdim olunmuş sənədlər təsdiq olunsun.<br>2. 2026/2027-ci akademik tədris ilində Azərbaycan Texniki Universitetində bakalaviriat səviyyəsində yeni 6006021 - “Kommunikasiya sistemləri mühəndisliyi“ ixtisasının açılması üçün Azərbaycan Elm və Təhsil Nazirliyi qarşısında vəsatət qaldırılsın. |

## Azərbaycan Texniki Universitetinin 2025-ci ildə keçirilən Elmi Şura iclaslarının QƏRARLARI

| | |
|---|---|
| | **4. AZTU rebrendinq təklifi haqqında.**<br>AZTU rebrendinq təklifi təsdiq olunsun.<br>**5. Hazırlıq kurslarında dərs deyən müəllimlərin saathesabı əməkhaqlarının artırılması haqqında.**<br>Azərbaycan Texniki Universitetində əcnəbi tələbələr üçün təşkil olunan hazırlıq kurslarında dərs deyən müəllimlər üçün saathesabı əməkhaqqı miqdarı artırılsın.<br>**6. Maşınqayırma texnologiyası kafedrasının dosenti Əziz Sarvan Şirvan oğlunun, Kimya texnologiya, təkrar emal və ekologiya kafedrasının dosentləri Cəfərova Afət Arif qızı və Şirinova Nəcibə Əhməd qızının dosent elmi adı alması üçün Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılması haqqında.**<br>Cəfərova Afət Arif qızının dosent elmi adı alması ilə bağlı gizli səsvermənin nəticələri üzrə hesablama komissiyasının protokolu təsdiq edilsin. Gizli səsvermənin nəticələrinə əsasən Cəfərova Afət Arif qızına dosent elmi adı verilməsi barədə Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılsın.<br>Şirinova Nəcibə Əhməd qızının dosent elmi adı alması ilə bağlı gizli səsvermənin nəticələri üzrə hesablama komissiyasının protokolu təsdiq edilsin. Gizli səsvermənin nəticələrinə əsasən Şirinova Nəcibə Əhməd qızına dosent elmi adı verilməsi barədə Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılsın.<br>Əziz Sarvan Şirvan oğlunun dosent elmi adı alması ilə bağlı gizli səsvermənin nəticələri üzrə hesablama komissiyasının protokolu təsdiq edilsin. Gizli səsvermənin nəticələrinə əsasən Əziz Sarvan Şirvan oğluna dosent elmi adı verilməsi barədə Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılsın.<br>**7. Dayanıqlı inkişaf platforması əsasında AzTU İnkubasiya Mərkəzinin yaradılması haqqında.**<br>Dayanıqlı inkişaf platforması əsasında AzTU İnkubasiya Mərkəzi yaradılsın.<br>**8. Azərbaycan Texniki Universitetinin elmi-metodiki şurasının 2025/2026-cı tədris ili üçün fəaliyyət planının təsdiqi haqqında.**<br>Azərbaycan Texniki Universitetinin elmi-metodiki şurasının 2025/2026-cı tədris ili üçün fəaliyyət planı təsdiq edilsin.<br>**9. Vətən müharibəsi iştirakçısının təhsil haqqı borcunun Universitet tərəfindən qarşılanması haqqında.**<br>Azərbaycan Texniki Universiteti Nəqliyyat və logistika fakültəsinin 2024/2025-ci tədris ilində 109a2 qrupunda təhsilini başa vurmuş tələbəsi, Vətən müharibəsi iştirakçısı, Zeynalov Heydər Haqverdi oğlunun təhsil haqqı borcu Universitetin hesabına ödənilsin. |

| | |
|---|---|
| | **10. Azərbaycan Texniki Universiteti nəzdində Müdafiə Texnologiyaları və Kibertəhlükəsizlik tədqiqat klasterinin yaradılması haqqında.**<br>1. Müasir tədqiqatların koordinasiyasını təmin etmək, təkrarçılığı aradan qaldırmaq, elmi nəticələrin müdafiə və kibertəhlükəsizlik sahələrinə yönəldilməsini sürətləndirmək məqsədilə Azərbaycan Texniki Universitetinin nəzdində **"Müdafiə Texnologiyaları və Kibertəhlükəsizlik Tədqiqat Klasteri (MTK-Cluster)"** yaradılsın.<br>2. Klasterə aşağıdakı əsas funksiyaların icrası həvalə edilsin:<br>- Müdafiə, kibertəhlükəsizlik, enerji və rəqəmsal infrastruktur sahələrində tədqiqat ehtiyaclarını öyrənmək və birləşdirmək;<br>- Elmi fəaliyyətin təkrarlanmasını aradan qaldırmaq və müasir tədqiqat istiqamətlərini koordinasiya etmək;<br>- Süni intellekt, ağıllı sistemlər, e-mobility və dayanıqlı texnologiyalar üzrə innovasiyaları təşviq etmək,<br>- Dövlət qurumları və sənaye tərəfdaşları ilə əməkdaşlıq çərçivəsində tətbiqi layihələr həyata keçirmək. |
| 19.12.2025<br>(pr. 3) | **1. AzTU-nun Strateji İnkişaf Planının təsdiqi haqqında.**<br>AzTU-nun 2026-cı il üçün Strateji İnkişaf Planının təsdiqi üçün müvafiq sənədlər növbəti Elmi Şura iclasına kimi hazırlanaraq təqdim olunsun.<br>**2. Maşın dizaynı, mexatronika və sənaye texnologiyaları kafedrasının tədqiqatçı professoru Çələbi İftixar Qurbanəli oğlunun professor elmi adı, Rəqəmsal iqtisadiyyat və maliyyə texnologiyaları kafedrasının dosenti Tağıyev Xəyaləddin Rəsul oğlunun dosent elmi adı alması üçün Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılması haqqında.**<br>- Çələbi İftixar Qurbanəli oğlunun professor elmi adı alması ilə bağlı gizli səsvermənin nəticələri üzrə hesablama komissiyasının protokolu təsdiq edilsin. Gizli səsvermənin nəticələrinə əsasən Maşın dizaynı, mexatronika və sənaye texnologiyaları kafedrasının tədqiqatçı professoru, texnika elmləri doktoru Çələbi İftixar Qurbanəli oğluna “texnika elmləri” elm sahəsinin 3313.02 – Maşınlar, avadanlıqlar və proseslər ixtisası üzrə professor elmi adı verilməsi barədə Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılsın.<br>- Tağıyev Xəyaləddin Rəsul oğlunun dosent elmi adı alması ilə bağlı gizli səsvermənin nəticələri üzrə hesablama komissiyasının protokolu təsdiq edilsin. Gizli səsvermənin nəticələrinə əsasən Rəqəmsal iqtisadiyyat və maliyyə texnologiyaları kafedrasının dosenti, iqtisad üzrə fəlsəfə doktoru Tağıyev Xəyaləddin Rəsul oğluna 5302.01 – Ekonometriya, iqtisadi statistika ixtisası üzrə dosent elmi adı verilməsi barədə Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılsın. |

## Azərbaycan Texniki Universitetinin 2025-ci ildə keçirilən Elmi Şura iclaslarının QƏRARLARI

| | |
|---|---|
| | **3. Fəlsəfə doktoru proqramı üzrə təhsil alan doktorantların dissertasiya işinin mövzularının (eləcə də elmi rəhbərlərinin) dəqiqləşdirilməsi haqqında**<br>Doktoranturaya (dissertanturaya) fəlsəfə doktoru proqramı üzrə qəbul edilmiş iddiaçıların dissertasiya mövzuları və elmi rəhbərləri təsdiq edilsin.<br>**4. Qiyabi təhsil formasında təhsil alanların akademik borclarının tənzimlənməsi haqqında**<br>1. Qiyabi təhsil formasında təhsil alan təhsilalanların hazırda universitetdə tədrisi aparılmayan fənlər üzrə akademik borclarının, unversitetdə tədris olunan və məzmunca oxşar fənnlərlə müvafiq qaydada əvəz olunması təmin olunsun.<br>2. Qiyabi təhsil formasında təhsilalanlarin bakalaviriat təhsil səviyyəsində tədrisi həyata keçirilən fənlər üzrə akademik borclarının ləğvi məqsədilə, təhsilalanların bakalaviriat təhsil səviyyəsində yaradılan müvafiq alt qruplarda kreditlərin toplanması üçün şərait yaradılsın.<br>3. Qiyabi təhsil formasında təhsilalanların unversitetdə tədrisi aparılmayan fənlər üzrə akademik borclarının qiyabi təhsil formasında zəruri tələbə sayı (iki və daha çox) mövcud olduqda, kreditlərin toplanması üçün xüsusi qrup təşkil olunaraq fənlərin tədrisi təşkil edilsin.<br>4. Qiyabi təhsil formasında təhsilalanların “Ali təhsilin bakalaviriat səviyyəsi üzrə ixtisasların Təsnifatı”nda mövcud olmayan və hazırda tədrisi aparılmayan fənlər üzrə akademik borc yalnız bir tələbədə yarandıqda, kreditlərin toplanması məqsədilə, fərdi qaydada fənnin tədris olunması tələbə ilə müəllim arasında xüsusi qrafik əsasında təşkil olunsun.<br>**5. Müxtəlif məsələlər.**<br>**5.1. AzTU-nun tədqiqat statuslu ali təhsil müəssisəsi olması üçün lazımi fəaliyyətlərin həyata keçirilməsi haqqında**<br>1. Elm və innovasiyalar üzrə prorektora tapşırılsın ki, AzTU-nun tədqiqat potensialının yüksəldilməsi və səmərəli istifadə olunması üçün təkliflər toplusu hazırlanıb təqdim edilməsini təmin etsin.<br>2. 2026-cı ildə beynəlxalq bazalara daxil olan jurnalllarda beynəlxalq elmi şəbəkələşmənin və məqalələrə istinadların artırılması üçün lazımi elmi təşviq mexanizmlərinin tətbiqi diqqətdə saxlanılsın.<br>3. Daxili Qrant Layihəsinin 2026-cı il ərzində icra və idarə olunması məqsədilə müvafiq təkliflər və əmr layihəsi hazırlanıb təqdim edilsin. |

**Azərbaycan Texniki Universitetinin 2025-ci ildə keçirilən Elmi Şura iclaslarının QƏRARLARI**

| | |
|---|---|
| | AzTU-nun elmi tədqiqat ekosisteminin gücləndirilməsi, maddi-texniki və laboratoriya bazasının yenilənməsi üçün təkliflər hazırlanıb təqdim edilməsi təşkil edilsin. |